# Ombudsman Aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən Naxçıvanda birgə seminar keçirilib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda "Beynəlxalq humanitar hüquq çərçivəsində xüsusi kateqoriyaya aid şəxslərin hüquqlarının müdafiəsinin praktiki aspektləri" mövzusunda seminar təşkil olunub. Tədbirdə bir sıra dövlət qurumlarının əməkdaşları, beynəlxalq ekspertlər və media nümayəndələri iştirak ediblər.

Ombudsman Aparatından bildirilib ki, seminarın keçirilməsində məqsəd aidiyyəti dövlət qurumlarının əməkdaşlarının beynəlxalq humanitar hüququn milli səviyyədə implementasiyası sahəsində bilik və bacarıqlarının daha da artırılması olub.




Tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Kojiç açılış nitqi ilə çıxış edib və seminarın işinə uğurlar arzulayıblar.

Ombudsman çıxışı zamanı otuz ilə yaxın müddət ərzində Ermənistan tərəfindən torpaqlarımızın işğalı zamanı beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulduğunu, ərazilərimizin minalarla çirkləndirildiyini, İkinci Qarabağ müharibəsindən indiyədək 330-dan çox şəxsin mina qurbanına çevrildiyini bildirib.

Müvəkkil Birinci Qarabağ müharibəsində 4000-ə yaxın azərbaycanlının itkin düşdüyünü, onların taleyi barədə Ermənistan tərəfindən indiyədək məlumat verilmədiyini qeyd edib. S.Əliyeva işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə və bərpa-quruculuq işləri zamanı azərbaycanlılara məxsus kütləvi məzarlıqların aşkar olunduğunu, həmin şəxslərin amansız işgəncələrə məruz qaldığını deyib.

Tədbirdə tematik qrup müzakirələri təşkil olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Yekunda seminar iştirakçılarına sertifikatlar təqdim edilib.

Azərbaycan.- 2023.- 24 noyabr, № 256.- S.9.